# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 01 may tarixli 15-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 01 may tarixli 15-VII FR nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 01 may tarixli 15-VII FR nömrəli Fərmanına (bundan sonra – Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları on beş gündən gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana

uyğunlaşdırılmasını təmin edib, bu barədə iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyinə verilməsi ilə əlaqədar onların istifadəsində olan dövlət əmlaklarının təhvil-təslim prosesinin həyata keçirilməsi üçün aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət komissiya yaratsın və təhvil-təslim prosesini 1 ay müddətində yekunlaşdırsın.

5. Bu Sərəncamın icrası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericiliyin və proqramların icrasına nəzarət şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, __“ 2 ”__ __“ may ”__ 2025-ci il

№ __53s__